# Azərbaycan ilə Rusiya arasında Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti müzakirə edilib

Yanvarın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya Federasiyası müdafiə nazirinin müavini general-polkovnik Aleksandr Fomin ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanın müdafiə naziri vurğulayıb ki, dövlətlərimizin başçılarının dostluq münasibətləri ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin, xüsusilə də hərbi və hərbi-texniki əməkdaşlığın dinamik inkişafını müəyyənləşdirir.

General-polkovnik Z.Həsənov qeyd edib ki, tarixə Vətən müharibəsi kimi düşən İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatıb və torpaqlarımız 44 gün ərzində işğaldan azad edilib.

Müdafiə naziri ümidvar olduğunu bildirib ki, Azərbaycanın Ağdam rayonu ərazisində yerləşən Birgə Monitorinq Mərkəzi səmərəli fəaliyyət göstərərək əldə olunan razılaşmaların icrasına nəzarət edəcək və regionda uzunmüddətli sülhün təmin olunmasına töhfə verəcək.

General-polkovnik A.Fomin Birgə Monitorinq Mərkəzinin tam həcmdə fəaliyyətə başlaması üçün görülən işlərə və mərkəzdə yaradılan şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib. Rusiya Müdafiə nazirinin müavini əmin olduğunu qeyd edib ki, mərkəz təyinatı üzrə fəaliyyət göstərərək qarşısına qoyulan vəzifə və tapşırıqların öhdəsindən layiqincə gələcək, bölgədə sülhün və sabitliyin təmin edilməsinə nail olacaq.

Tərəflər həmçinin beynəlxalq və regional təhlükəsizlik məsələlərini, hərbi və hərbi-texniki əməkdaşlıq sahələrində əməkdaşlığın mövcud vəziyyəti və əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**Azərbaycan.- 2021.- 31 yanvar.- S. 5.**